Faiq Xanoğlan oğlu Kərimli
Bakı Dövlət Universiteti "İqtisadiyyat" kafedrası, doktorant
E-mail: karimli.faig@gmail.com
UOT: 338.2:338.24; JEL: L16; L5; L52; O25; M12; M54

Müasir dövrdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinin nəzəri-metodoloji xüsusiyyətləri

Xülasə

Tədqiqatın məqsədi - müasir dövrdə sənaye sahəsində idarətmə sisteminin təkmilləşdirilməsinin nəzəri-metodoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsindən və ümumiləşdirilməsindən ibarətdir. Bunun üçün sənaye sahəsində olan problemlərdən yanaşmaqla idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri və bununla bağlı problemlər açıqlanmışdır. Müasir şəraitdə sənaye sahəsinin, idarəetmə sisteminin inkişaf etdirilməsi, dövrün tələblərinə uyğun təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Dövrün resurs imkanlarından və texnoloji yeniliklərindən çıxış etməklə sənaye sahəsində idarəetmə sisteminin mövcud mexanizmlərinin yenilənməsi və təkmilləşdirilməsi üzrə bir sıra tövsiyyələr irəli sürülmüş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası hazırki şəraitdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi problemlərinin araşdırılması üçün təhlil sintez müqayisə və ümumiləşdirmə metodları kimi iqtisadi metodlardan istifadə edilmişdir. Eyni zamanda sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinin nəzəri-metodoloji xüsusiyyətlərini öyrənən bir qrup tədqiqatçıların elmi fikirlərinə və yanaşmalarına diqqət yönəldilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından qeyd edə bilərik ki, hazırki şəraitdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi mexanizmlərinin işlənməsində və bununla bağlı təkliflər kompleksinin hazırlanmasında məqalədə əldə olunan elmi-praktiki nəticələrdən istifadə və tətbiq məsələləri xüsusi önəm kəsb edir. Tədqiqatın nəticələri nöqteyi-nəzərindən isə bunu qeyd edə bilərik ki, sənaye sahəsində idarəetmə sisteminin mövcud mexanizmlərinin təkmilləşdirilməsi strategiyasının hazırlanması və reallaşdırılmasında əldə olunan elmi-praktiki nəticələrin səmərəli ola bilməsi ilə izah olunur. Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından qeyd edə bilərik ki, məqalədə verilən material əsas etibarilə orijinallığı ilə diqqət çəkir. Başlıca elmi yenilik isə qlobal çağırışlar şəraitində və hazırki mürəkkəb dövrdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi problemlərinə müasir elmi-nəzəri, metodoloji və praktiki baxışlar formalaşdırılmışdır. Digər tərəfdən qlobal təhdidlər kontekstində sənaye sahəsində idarəetmə sisteminin səmərəliliyinin artırılması məqsədilə daha etibarlı və dayanıqlı fəaliyyət mexanizmlərinin işlənməsi və reallaşdırılmasının vacibliyi əsaslandırılmışdır. Yaxın, orta və uzaq perspektivdə yeni çağırışlar nəzərə alınmaqla sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra önəmli fikirlər və yanaşmalar ümumləşdirilmişdir.

Açar sözlər: *sənaye sahəsi, idarəetmə sistemi, idarəetmə sisteminin təkmilləşdirilməsi, nəzəri-metodoloji xüsusiyyətlər, nəzəri yanaşmalar, sənaye sahəsinin inkişaf problemləri, idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri.*

Giriş

İdarəetmə müəyyən texnologiyaya uyğun olaraq, onun iştirakçıları arasında səlahiyyətlərin bacarıqla bölgüsü nəzərə alınmaqla reallaşdırılan, dəqiq işlənmiş strategiya və məqsədləri olan mürəkkəb, çoxfunksiyalı, dinamik bir prosesdir. İdarəetmə – müəssisədə qabaqcadan qarşıya qoyulmuş məqsədlərə nail olmaq və onlar arasında münasibətləri tənzimləmək, mövcud maliyyə resurslarından və vəsaitlərdən düzgün və səmərəli istifadəyə yönəlmiş qərarlar qəbul etmək, nəzarəti reallaşdırmaq sahəsində lazımi işləri görmək üçün düşünərək edilən hərəkətdir [1, s.10]. İdarəetmə, insanların təkbaşına əldə edə bilməyəcəkləri məqsəd və vəzifələrə çatmaq üçün ictimai təşkilatlar yaratmağa və birləşməyə başladığı şəhərlərin və sivilizasiyaların yüksəlişindən bəri ən mühüm insan fəaliyyətlərindən biridir. Məhz buna görə idarəetmə fərdi səylərin əlaqələndirilməsini təmin etmək üçün zəruri hala gəldi. Cəmiyyət transformasiya olunduqca idarəetməyə dair nəzəri baxışlar dəyişir ki, bu da idarəetmənin ictimai-siyasi və sosial-iqtisadi inkişaf şəraitinin və onları müşayiət edən elmi nailiyyətlərin təsiri altında formalaşan xüsusiyyətlərinin öyrənilməsini zəruri edir. İdarəetmə öz inkişafında çoxminillik bir yol keçmiş və bu yolda onun mahiyyəti, istifadə olunan metodlar haqqında nəzəri baxışlar dərinləşmişdir. Müasir

idarəetmənin əsasları XX əsrin əvvəllərində qoyulmuşdur ki, onun əsas məqsədi işçilərin öz vəzifələrini əlaqələndirilmiş, bacarıqla və səmərəli şəkildə yerinə yetirmələrini təmin etməklə səmərəliliyin artırılması problemini həll etmək idi. XX əsrin ortalarından həm idarəetmə nəzəriyyəsində, həm də sənaye komplekslərində əhəmiyyətli artım prosesi aktivləşir, bunun nəticəsində həmin komplekslərin idarə olunmasını təmin etmək üçün idarəetmə elminə digər elm sahələrindən (sosiologiya, psixologiya, statistika, riyaziyyat və s.) nəzəriyyələr daxil edilir. Hal-hazırda idarəetməyə dair nəzəri baxışlar ictimai-siyasi və sosial-iqtisadi şəraitdə baş verən davamlı dəyişikliklərin təsirinə məruz qalır [2, s.157].

Qlobal təsirlərin artdığı dövrdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinə konseptual yanaşmalar və onların xüsusiyyətləri

Müasir idarəetmə elmi bütün idarəetmə nəzəriyyələrinin sintezidir və onun əsas məqsədi sürətlə dəyişən mühitdə effektiv idarəetmə sistemlərinin seçilməsi üçün yaradıcı, dinamik və adaptiv baza yaratmaqdır. Bu sistemlərin davamlı və səmərəli işləməsini təmin etmək məqsədilə təkcə müasir idarəetmə təfəkkürü və idarəetmə təşkilatı deyil, həm də müəssisələrin formalaşması və fəaliyyəti üçün yeni mexanizmlər və idarəetmə vasitələri tələb olunur. İdarəetmə universal bir proses kimi insanların olduğu yerdə fəaliyyət göstərir. Rəhbərliyin maddi və maliyyə resursları olmasa belə, müəyyən fəaliyyətin reallaşdırılması və qarşıya qoyulan məqsədlərə çatmaq üçün insan resurslarının olması zəruri şərtdir. İdarəetmə, idarəedici təşkilatın məqsədlərinin səmərəli şəkildə reallaşdırılması məqsədilə planlaşdırma, proqnozlaşdırma, təşkiletmə, nəzarət, əlaqələndirmə və istiqamətləndirmə funksiyalarının, idarəetmə nəzəriyyələrinin, konsepsiyalarının, qaydalarının, metodlarının və modellərinin sistemli və şüurlu olaraq tətbiqidir. Başqa sözlə desək, idarəetmə qısa müddət ərzində təşkilatın ümumi məqsədlərinə çatmaq üçün vəsait, avadanlıq, xammal, material və digərlərdən istifadəyə dair qərarların qəbul edilməsi və reallaşdırılmasıdır [3, s.114]. Hazırkı iqtisadi şəraitdə müəssisələrin idarəetmə sistemlərində problemlərin sayı getdikcə artır ki, bu da həmin sistemlərdə idarəetmə mexanizminin daha da təkmilləşdirilməsini zəruri edir. Bu, ilk öncə, xarici və daxili mühitdə daimi dəyişikliklər şəraitində müəssisənin idarəetmə mexanizminin formalaşması və inkişafının nəzəri əsaslarının öyrənilməsini nəzərdə tutur. Müəssisənin idarə edilməsi müasir idarəetmə biliklərini, habelə idarəetmə proseslərinin effektivliyini başa düşməyi tələb edir [4, s.137]. Sənaye müəssisəsi mürəkkəb dinamik bir sistemdir və onun idarə edilməsi uzun və çox zəhmətli bir prosesdir, menecerlərdən xüsusi idarəetmə bacarıqları tələb edir, habelə idarəetmə sistemini nəzarətin vəziyyəti haqqında məlumatla təmin edir. Mövcud idarəetmə sistemi müəssisələrin daxili və xarici mühitlə qarşılıqlı əlaqəsinin xarakterini müəyyənləşdirir. İdarəetmə sistemi çərçivəsində idarəetmə prosesi reallaşdırılır, qəbul edilən idarəetmə qərarları vasitəsilə idarəetmə altsisteminin idarə olunan alt sistemə məqsədyönlü təsiri baş verir. "İdarəetmə" və "sistem" anlayışları bir-biri ilə üzvi şəkildə əlaqəli və bir-birindən asılı kateqoriyalardır. Ədəbiyyatda "idarəetmə sistemi" kateqoriyasının başa düşülməsinə müxtəlif yanaşmalar mövcuddur. Onlardan bəzilərini nəzərdən keçirək. Tədqiqatçıların bir qismi hesab edir ki, "idarəetmə sistemi bütün elementlərin, alt sistemlərin və onlar arasındakı kommunikasiyaların, habelə təşkilatın müəyyən edilmiş fəaliyyətini təmin edən proseslərin məcmusudur". Digər bir qrup tədqiqatçıya görə, "idarəetmə sistemi müəssisənin müxtəlif aspektlərinin idarə edilməsi problemlərinin həlli üçün nəzərdə tutulmuş texniki və təşkilati üsul və tədbirlərin məcmusudur".

Əgər praktiki proseslərdən yanaşsaq, idarəetmə sistemi xarici mühitdə baş verən dəyişikliklərə tez reaksiya verməyə imkan verir. İstənilən müəssisənin xüsusi idarəetmə sistemləri var. İdarəetmə sistemi xüsusi idarəetmə obyektlərinə münasibətdə müəyyən xüsusiyyətləri öyrənmək üçün bir vasitə kimi istifadə olunur. O, tədqiq olunan obyektlərin şəxsi xüsusiyyətlərini və bütün təşkilatın bir sistem kimi işləməsini dərindən başa düşməyə kömək edə bilər. İdarəetmə sistemi istənilən təşkilatın alt sistemi kimi müəyyənləşdirilə bilər, burada əsas komponentlər qarşılıqlı əlaqədə olan insan qruplarıdır. Müəssisənin idarəetmə sistemi onun bütün xidmətləri, alt sistemləri və onlar arasındakı kommunikasiyalar, habelə müəyyən edilmiş fəaliyyəti təmin edən proseslər kompleksindən ibarətdir. İstənilən təşkilatın idarə edilməsi, planlaşdırılan məqsədlərə nail olmaq baxımından ən yaxşı nəticələr əldə etmək üçün işçilərin, onların qruplarının və ya bütövlükdə təşkilatın fəaliyyətinə təsir göstərən davamlı bir prosesdir. İdarəetmə prosesləri əlaqələndirilmiş hərəkətləri təmin edir ki, bu da öz növbəsində təşkilatların qarşısında duran

ümumi məqsəd və ya məqsədlər toplusunun reallaşdırılmasının son nəticəsini təmin edir. Fəaliyyətləri əlaqələndirmək üçün idarəetmə funksiyalarını reallaşdıran xüsusi orqanlar olmalıdır. Buna görə də təşkilatlarda idarə edən və idarə olunan hissələr fərqləndirilir [5, s.120]. Ümumiləşdirmələr aparmağa cəhd etsək, idarəetmə sisteminin tərkib hissələrini sxematik olaraq şəkil 1-dəki kimi verə bilərik.

Şəkil 1.

İdarəetmə sisteminin tərkibi



İdarəetmə metodologiyası altsistemi məqsədlərin, vəzifələrin, qanunların, prinsiplərin, funksiyaların, vasitələrin, idarəetmə üsullarının məcmusudur. Bu altsistemin əsas məqsədi müəssisənin hədəflərini, onlara nail olmaq yollarını və vasitələrini hərtərəfli başa düşməyi təmin edən idarəetmə fəaliyyətinin məntiqi sxemini qurmaqdır. İdarəetmə prosesləri altsistemi təsərrüfat fəaliyyətinin xarakterindən və xüsusiyyətlərindən, mövcud təşkilati strukturdan, idarəetmənin formalaşmış rabitə və informasiya təminatı sistemindən, habelə daxili idarəetmədən asılı olan idarəetmə qərarlarının qəbulu və reallaşdırılması mexanizmi ilə müəyyənləşdirilir. İdarəetmə strukturu alt sistemi müəssisədə qəbul edilmiş ünsiyyət və tabeçilik münasibətlərini, heyətin qarşılıqlı əlaqə qaydalarını formal olaraq xarakterizə edir. İdarəetmə vasitələri altsistemi idarəetmə fəaliyyətinin mürəkkəbliyini azalda, onun sürətini və səmərəliliyini artıra bilən maddi resurslar toplusunu əhatə edir. Digər tərəfdən, idarəetmə bir proses kimi idarəetmə sisteminin yeni vəziyyətə keçməsi ilə idarə olunana təsirində ifadə olunur. Bu prosesi idarəetmənin üç funksiyasını təmsil edən bir neçə fundamental komponentə bölmək olar: marketinq; planlaşdırma və nəzarət. İdarəetmə funksiyalarının öyrənilməsinin aktuallığı funksional təhlilə əsaslanır. İdarəetmə funksiyaları idarəetmə sahəsində əməyin bölgüsü və ixtisaslaşması prosesində yaranan idarəetmə fəaliyyəti növlərini xarakterizə edir. İdarəetmə fəaliyyətinin istənilən növündə idarəetmə vəzifələrini və onların proses və əməliyyatlarını ayırmaq mümkündür. Qərar qəbulu idarəetmənin əsas funksiyası olmaqla bərabər, istənilən idarəetmə funksiyasının tərkib hissəsidir. Müəssisənin məqsədlərinə çatmaq üçün idarəetmə funksiyaları konkret istehsal və sosial problemlərin həllinə yönəlmiş idarəetmə tədbirləri adlanır. İdarəetmə funksiyasının məzmunu idarəetmə fəaliyyətinin iki aspektini əks etdirir: birincisi, funksiya zəruri hərəkətləri (nə etmək lazımdır) müəyyənləşdirir və ikincisi, bu hərəkətlərin konkret məzmununu (bunun necə ediləcəyini) ortaya qoyur. İdarəetmə funksiyalarının rolunu və əhəmiyyətini açmaq üçün onların hər birini təhlil etmək lazımdır.

Qeyd edək ki, idarəetmənin əsas funksiyası kimi marketinq çıxış edir, belə ki, marketinq bazar və gözlənilməz rəqabət şəraitində idarəetmənin əsas sahələrindən biridir. Marketinq qarşısında duran vəzifələr baxımından idarəetmənin bütün əsas sahələrini əhatə edir və marketinq fəaliyyətinin idarə

edilməsinə sistemli yanaşma nöqteyi-nəzərindən baxılmalıdır. Bu onunla izah olunur ki, marketinqin müxtəlif komponentləri (funksiyalar, alətlər, vasitələr, obyektlər və subyektlər) yalnız maksimum qarşılıqlı əlaqə və bir-birini tamamlayanda səmərəli tətbiq oluna bilər. Bu istiqamətdə idarəetmə sisteminin formalaşması birbaşa idarəetmə prosesləri ilə yanaşı, idarəetmə subyektlərinin özləri ilə də bağlıdır. Funksional yanaşma nöqteyi-nəzərindən marketinqə aşağıdakı hissələr daxildir: təhlil, planlaşdırma və proqnozlaşdırma, uçot, nəzarət, tənzimləmə [6, s.62]. Marketinqin idarə edilməsi sistemi əsasən bunlardan ibarətdir: idarəetmə subyektləri (idarəetmə effektivliyinə və fəaliyyətinə cavabdeh olanlar); idarəetmənin prinsipləri və funksiyaları (müəyyən proseslərin əsasları); marketinq məlumatlarının axınları və idarəetmə funksiyalarının reallaşdırılması üsulları.

Hesab edirik ki, marketinq idarəetmə sisteminin qurulması ciddi elmi yanaşmaya əsaslanmalıdır, çünki qəbul edilən qərarların effektivliyi bundan asılıdır. Ümumiyyətlə, marketinq idarəetmə funksiyası kimi müəssisənin bütün rəhbərliyi ilə əlaqəni nəzərdə tutur və ayrıca, müstəqil olaraq nəzərdən keçirilə bilməz. İdarəetmə fəaliyyətinin növbəti komponenti planlaşdırmadır. İdarəetmə funksiyası kimi onun məzmunu xarici və daxili amillər nəzərə alınmaqla fəaliyyətin inkişafının əsas istiqamətlərinin və nisbətlərinin əsaslı şəkildə müəyyən edilməsindən ibarətdir. Planlaşdırma hər hansı qərarların qəbulu üçün əsasdır ki, bu da şirkətin daha da inkişaf etməsinə imkan verir. Planlaşdırmanın mahiyyəti bütün şirkətin və hər bir bölmənin inkişaf məqsədlərini müəyyən etməkdir. Planlaşdırmanın əsas vəzifəsi, verilmiş şəraitdə mümkün qədər təşkilatın qarşısında duran problemlərin optimal həllini tapmaqdır. Menecer planlaşdırır, çünki o, vaxtından əvvəl qabaqcadan düşünməli və hərəkət etməlidir. Planlaşdırma idarəetmə funksiyası kimi bir sıra vəzifələri əhatə edir: müəssisənin məqsədyönlü inkişafını təmin etmək; perspektiv istiqamətləndirmə və inkişaf problemlərinin erkən aşkarlanması; şirkətin işçi heyətinin hərəkətlərinin əlaqələndirilməsi, vəzifələrin qoyulması; qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə nəzarətin əsas elementlərinin yaradılması; işçilərin motivasiyası və işçilərə informasiya dəstəyi [7, s.319]. Bunlarla bərabər, planlaşdırmanın idarəetmə prosesi bir sıra spesifik xüsusiyyətlərlə xarakterizə olunur: Planlaşdırmanın iki tərəfi var: sosial-iqtisadi və təşkilati-texniki. Təşkilati-texniki tərəf əməyin kooperasiyası ilə müəyyənləşdirilir və planlaşdırma vasitələrinin və üsullarının inkişaf səviyyəsindən asılıdır. Sosial-iqtisadi tərəfi cəmiyyətin sosial-iqtisadi şəraiti müəyyən edir; İdarəetmə elementi kimi planlaşdırma informasiya xarakterlidir. Müəssisədə planlaşdırma istehsalın intensivləşdirilməsi üçün ən mühüm təşkilati amillərdən biri kimi çıxış edir.

Yaxın perspektivdə sənaye sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri

Sənayə sahəsində idarəetmə sisteminin işləkliyinin təmin olunması bir sıra mühüm funksiyaların cidi şəkildə nəzərə alınmasını şərtləndirir. Məsələn, idarəetmə funksiyası kimi nəzarətin rolu olduqca böyükdür. Belə ki, müəssisənin fəaliyyətinə nəzarət idarəetmə funksiyalarından biridir ki, onsuz bütün digər idarəetmə funksiyaları tam şəkildə reallaşdırıla bilməz. Odur ki, nəzarət həm uzunmüddətli perspektivdə, həm də operativ idarəetmə məsələlərində müəssisənin normal fəaliyyətini və qarşıya qoyulmuş məqsədlərinə nail olunmasını təmin edən siyasətin hazırlanması və qərarların qəbulunda əsas vasitələrdən biridir. Nəzarətin əsasını subyektlə nəzarət obyekti arasında istənilən qarşılıqlı əlaqədə mövcud olan əks əlaqə prinsipi təşkil edir. Bu prinsipə informasiyanın qəbulu, onun qiymətləndirilməsi və qərar qəbulu mərhələlərinin unifikasiyası daxildir. Nəzarətin rolu qəbul edilmiş planlaşdırma qərarlarının yoxlanılmasında və onların nəticələrinin qiymətləndirilməsində özünü göstərir. Nəzarət idarəetmənin ilk mərhələsində reallaşdırılmaqla, bütün sonrakı mərhələlərdə özünü göstərə və ya sonuncu ola bilər. Nəzarət funksiyası özünəməxsus xüsusiyyətə malikdir, yəni idarəetmə dövrünün bütün proseslərini əhatə edir. Nəzarət menecerlərə müəssisədəki işlərin vəziyyəti haqqında bütün lazımi məlumatlara sahib olmaq imkanı verir. İdarəetmə qərarlarının keyfiyyəti və onların icrasının vaxtında olması nəzarətin effektivliyindən asılıdır. Qəbul edilmiş qərarların icrasına nəzarət təşkilati işin ən mühüm hissəsidir. Rəhbər qərarlar qəbul etdiyindən və onlar üçün məsuliyyət daşıdığından, nəzarət etmək hüququnu özündə saxlayır. İdarəetmə funksiyası kimi nəzarət istehsalın səmərəli aparılmasına və məqsədə çatmasına kömək etməyən məqamları vaxtında müəyyənləşdirməyə və aradan qaldırmağa imkan verir. Bəzi müəlliflər idarəetmənin koordinasiya və tənzimləmə kimi müstəqil universal funksiyalarının olduğunu da qeyd edirlər. Müəssisənin planlı və mütənasib inkişafı təkcə planlaşdırma deyil, həm də

tənzimləmə yolu ilə təmin edilir. Menecerlər tənzimləmə funksiyasını yerinə yetirməklə müəssisələrdə ardıcıl və vahid istehsalı təmin edirlər. Təşkilatda ardıcıllıq və vahidlik planlaşdırma kimi tənzimləmədən istifadə etməklə əldə edilir. İdarəetmənin mühüm funksiyası koordinasiyadır ki, onun əsas vəzifəsi bütün istehsalat qruplarının işini yaxşı əlaqələndirilmək və təşkil etməkdir. Müəssisənin idarəetmə sistemi üç əsas komponentə əsaslanır: həllərin hazırlanması və reallaşdırılması üçün informasiya təminatı; qarşıya qoyulmuş vəzifələrin həlli üçün tipik biznes prosedurları toplusu və kadrların motivasiya sistemi [8, s.218]. İdarəetmə sahəsi istehsalla bərabər, elmi-tədqiqat işlərini, maliyyəni, satış, kommunikasiyaları, bütünlükdə müəssisənin fəaliyyətinin bütün sferalarını özündə birləşdirir [9, s.29].

Praktiki nöqteyi-nəzərindən baxsaq, idarəetmə sistemlərinin təhlilində mühüm yeri elmi tədqiqatlar tutur. Elmi tədqiqat idarəetmə sistemlərində yaranan səbəb-nəticə əlaqələrinin tapılması prosesidir. İdarəetmə sistemlərində elmi tədqiqatların əsas məqsədi həmin sistemin səmərəliliyini artırmaq üçün etibarlı məlumatların əldə edilməsidir. Əgər elmi tədqiqat təşkilatın idarəetmə sistemlərinin təhlili ilə bağlıdırsa, tədqiqatın əsas məqsədi təşkilatın fəaliyyətinin səmərəliliyini artırmaq üçün tədbirlər hazırlamaqdır. Yeni təşkilatın yaradılması zamanı məqsəd qoyma funksiyalarının reallaşdırılması üçün elmi tədqiqatlar da aparılır. Elmi tədqiqat nəzəri və tətbiqi xarakter daşıyır, çünki tədqiqat obyektinin mövcud vəziyyətini qiymətləndirməyə və yaxşılaşdırmaq üçün önəmli tövsiyələr hazırlamağa imkan verir. Bundan başqa, tədqiqatlar uzaqgörənlik prinsipinin reallaşdırılmasına yönəlib. İstənilən müəssisədə effektiv idarəetmə sisteminin formalaşdırılması müvəffəqiyyətin və onun müasir bazarda sabit mövqeyinin açarıdır. Müəssisə rəhbərinin qarşısında duran mühüm vəzifə idarəetmənin rasional modelinin seçilməsidir [10]. Belə bir model çevik idarəetmə sisteminin formalaşdırılmasıdır. Hesab edirik ki, çevik idarəetmə bir növ dünyagörüşdür zehniyyətdir, çünki bu, prosedurların reallaşdırılmasının effektivliyinə böyük təsir göstərə bilən düzgün düşüncə tərzidir. Komanda üzvlərinə bir-biri ilə ünsiyyət qurmağa və menecerə güvənməklə bərabər, həmin ünsiyyət əsasında idarəetmə qərarlarının qəbuluna kömək edir [11, s.123]. Çevik idarəetmə sisteminin əsas vəzifəsi məqsədlərinə nail olmaq üçün müəssisədə iş proseslərinin ən effektiv şəkildə reallaşdırılmasıdır. Biz çevik sistemin formalaşmasını iki əsas prosesə ayırırıq: istehsal-texniki proses, inzibati və təşkilati proses. Bu gün müəssisənin səmərəliliyi üçün onun ilkin məlumatlarının təhlilinə, daxili və xarici mühitin birbaşa auditinə əsaslanan çevik müəssisə idarəetmə sistemləri formalaşır. Fikrimizcə, nisbətən yaxşı idarəetmə təcrübələrini tətbiq edən müəssisələr davamlı olaraq inkişafa doğru irəliləyirlər. İdarəetmənin düzgün qurulması mübahisələrin qarşısını alınması və müəssisələr üçün kifayət qədər hüquqi müdafiənin təmin edilməsi baxımından önəmlidir. Məlumdur ki, COVİD-19 pandemiyası hələ də davam edir və onun təsiri qlobal iqtisadiyyata ağır zərbə vurur. Bu böhranın təsirini minimuma endirmək üçün müəssisələrə güclü korporativ idarəetmə lazımdır. Bu məqsədlə müəssisələrdə antiböhran planı hazırlanır [12, s.67]. Antiböhran idarəetməsi çərçivəsində fəaliyyətlər müəssisənin sağ qalmasına, fəaliyyətinin saxlanmasına və iflasın qarşısını almağa yönəlmiş antiböhran strategiyasının hazırlanması və reallaşdırılması ilə əlaqələndirilir. Müəssisənin müflisləşmə hallarının qarşısını almağa, minimum maliyyə itkiləri ilə böhrandan çıxarmağa, ödəmə və rəqabət qabiliyyətini bərpa etməyə yönəlmiş idarəetməni dar mənada antiböhran idarəetməsi adlandırırlar. Böhran hadisələrini proqnozlaşdırmaq, onların təbiətini və baş vermə ehtimalını təhlil etmək olan idarəetmə geniş mənada antiböhran idarəetməsini əks etdirir. Antiböhran idarəetməsi böhran vəziyyətinin baş vermə ehtimalını proqnozlaşdırmağa, onun əlamətlərini təhlil etməyə yönəlmiş idarəetmə fəaliyyətinin xüsusi bir növüdür, həmçinin təşkilatı böhrandan çıxarmağa, nəticələrini yumşaltmağa və istifadə etməyə yönəlmiş tədbirlər sistemini əhatə edir.

Müasir müəssisənin uğurlu fəaliyyət göstərməsi və inkişafı onun yenidən qurulması üçün müxtəlif strategiyaları ehtiva edən stabilləşdirmə və maliyyə bərpa planı olmadan mümkün deyil. Böhran əleyhinə effektiv idarəetmə üçün neqativ prosesləri vaxtında müəyyənləşdirmək və böhranın tam və ya qismən qarşısının alınmasına yönəlmiş idarəetmə qərarları qəbul etmək lazımdır. Bu halda idarəetmə sisteminin mahiyyəti bir qrup əsas kateqoriyalardan istifadə etməklə də ifadə oluna bilər: "insan resursları", "əmək resursları", "kadrlar", "kadr potensialı", "əmək potensialı", "insan kapitalı" və s. Bu proseslərdə kadrlar önəmli rol oynayır və buna görə də kadrların idarəetmə sisteminin optimallığına xüsusi diqqət yetirilməlidir. Kadrların idarəetmə sistemi məqsədlərin, funksiyaların, kadrların idarə edilməsinin təşkilati

strukturunun, menecerlər və mütəxəssislər arasında şaquli və üfüqi funksional münasibətlərin, idarəetmə qərarlarının qəbulu və reallaşdırılması prosedurlarını əhatə edir. Kadrların idarəetmə sisteminin formalaşmasında idarəetmə sahəsində düzgün tərtib edilmiş məqsəd və vəzifələr müəssisənin işçilərinin davranışını əlaqələndirir (şəkil 2).

Şəkil 2.

İdarəetmə sisteminin əsas məqsəd və vəzifələrinin qruplaşdırılması



Şəkil 2-dən yanaşsaq, kadrların idarəetmə sistemi bir qrup altsistemləri əhatə edir: kadrların təhlili, planlaşdırılması, seçilməsi, işə götürülməsi, qiymətləndirilməsi, hazırlanması və ixtisasartırma işlərinin təşkili, kadrların sertifikatlaşdırılması və rotasiyasının aparılması, əmək haqqının idarə edilməsi, kadrların həvəsləndirilməsi, müəssisə işçilərinin uçotu, müəssisədə əmək münasibətlərinin təşkili, əmək şəraitinin yaradılması, sosial inkişaf, kadrların təhlükəsizliyi. Müasir şəraitdə kadrların idarəetmə sisteminin formalaşmasına müxtəlif yanaşmalarda əhəmiyyətli dəyişikliklər baş verir və müəssisələrin uğurlu və rəqabətli fəaliyyəti əsasən rasional və səmərəli idarəetmə sistemindən asılıdır. İşçilərin şəxsi məlumatlarının və keyfiyyətlərinin, onların işinin təşkilinə yanaşmaların, fəaliyyətinə həvəsləndirmə və nəzarət üsullarının, inkişaf perspektivlərinin və əməyin avtomatlaşdırılmasının öyrənilməsi müasir kadr idarəetmə sisteminin inkişafına mühüm töhfə verir. Zənnimizcə, kadrların idarəetmə sisteminin formalaşdırılması və səmərəli istifadəsi müəssisələrin fəaliyyətinin səmərəliliyinin mühüm tərkib hissəsidir. İqtisadi inkişafın indiki mərhələsində müəssisə yüksək məhsuldarlığı, rəqabət qabiliyyətini və bazarda sabit mövqe tutmasını təmin edən idarəetmə sistemini formalaşdırmalıdır. Bu vəziyyətdə aparıcı rol resurs potensialının ən aktiv komponenti kimi böhran şəraitində müəssisənin kadr idarəçiliyinə verilir, effektivliyi isə bütövlükdə müəssisənin fəaliyyətinin nəticələrindən asılıdır. İşin səmərəliliyi və keyfiyyəti, müştəri məmnuniyyəti, cəmiyyətlə sosial qarşılıqlı əlaqə, korporativ mədəniyyət və kollektivdəki ab-hava kadrların idarəetmə sisteminin və onun strukturunun işinin səmərəliliyindən asılıdır. Kadrların idarəetmə sisteminin effektivliyinin əhatə dairəsi kifayət qədər genişdir. Belə bir sistemin olmaması və ya onun qeyri-mütəşəkkilliyi müəssisəyə dağıdıcı təsir göstərən xaotik idarəetməyə gətirib çıxarır.

Nəticə

Beləliklə, sənaye sahəsində idarəetmə sisteminin mahiyyətini müəyyənləşdirən konseptual yanaşmaları ümumiləşdirməyə və bu sistemin təkmilləşdirilməsi ilə bağlı fikirlər söyləməyə çalışsaq, bunları qeyd edə bilərik: idarəetmə sisteminin mahiyyəti kimi bütövün hissələri arasında əlaqənin formalaşmasına və təkmilləşdirilməsinə aparan, idarəetmənin məqsədlərinin reallaşdırılmasına imkan verən hərəkətlərin məcmusu başa düşülə bilər; sənaye sahəsində idarəetmə sistemi müəssisənin fəaliyyəti prosesində yaranan idarəetmə problemlərinin həlli üçün vasitələr, metod və üsulların məcmusu kimi çıxış

edir; idarəetmə sistemi müəyyən məhdudiyyətlər altında maksimum yekun nəticə əldə etmək məqsədilə məlumatı toplamaq, təhlil etmək və emal etmək üçün nəzərdə tutulmuş mürəkkəb sistemdir; ümumilikdə idarəetmə sistemi bütün elementlərin, altsistemlərin və onlar arasındakı kommunikasiyaların, habelə təşkilatın müəyyən edilmiş fəaliyyətini təmin edən proseslərin məcmusudur. Bu yanaşmalara əsaslanaraq demək olar ki, müəssisələrin problemlərinin həlli onların idarəetmə sistemlərinin işinin düzgün təşkilindən asılıdır. Odur ki, istənilən müəssisədə mövcud idarəetmə sisteminə yenidən baxılmalı və təkmilləşdirilməlidir. Bu yolla müəssisələr bazar şəraitində maksimum hədəflərə çatmaq üçün bütün növ resursları birləşdirməyə, rəqabətqabiliyyətli istehsalların yaradılmasına, mənfəətlərinin artırılmasına və nəticədə böhran hadisələrinə qarşı dayanıqlılıq nümayiş etdirməyə nail ola bilərlər.

Ədəbiyyat

1. Novruzov, O.X. Sənaye müəssisələrində strateji idarəetmənin inkişafı və təşkilinin təkmilləşdirilməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2022, – 32 s.
2. Кретова, А. В. теоретические взгляды на сущность и развитие управления / А.В.Кретова // Менеджер. – 2019. – Т. 1, № 1(87), – с. 155-161.
3. Quliyev, K. Müəssisələrdə təşkilati idarəetmə. Geostrategiya jurnalı, yanvar -fevral 2021 № 01 (61).
4. Тарасов, А.С. сущность механизма управления функционированием предприятий в современных условиях / А.С.Тарасов // Менеджер. – 2022. № 4(102), – с. 137-143.
5. Шнюков, С.А. Методы оценки эффективности систем управления / С.А.Шнюков // . – 2022. № 82-3.
6. Варламов, А.А. Маркетинг как функция управления / А.А. Варламов // Результаты современных научных исследований и разработок: сборник статей IX Всероссийской научно-практической конференции, Пенза, 15.04.2020 года. Пенза: "Наука и Просвещение" (ИП Гуляев Г.Ю.),2020. с.62-64.
7. Гордеева, У.С. Анализ функций управления и их характеристик. Заметки ученого. 2021.№ 10, с.318.
8. Сычев, Е.В. Система управления предприятием / Е.В.Сычев, Ю.В.Ищенко // Вестник Луганского государственного университета имени Владимира Даля. – 2021. № 11(53), – с. 216-220.
9. Mahmudova, L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit № 4, Cild 26, 2019, – s.24-36.
10. Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. – p.430-435.
11. Nağızadə, E. Çevik (agile) idarəetmənin tətbiq mexanizmləri və metodoloji aspektlər. Geostrategiya jurnalı, mart -aprel 2022 № 02 (68), – s.121-124.
12. Aslanova, A.Korporativ idarəetmənin beynəlxalq təcrübəsi. Geostrategiya jurnalı, 2021 № 01 (61), s.67-71.

Фаиг Ханоглан оглы Керимли
докторант кафедры «Экономика» Бакинского Государственного Университета
E-mail: karimli.faig@gmail.com

Теоретико-методологические особенности совершенствования системы управления в промышленной сфере в нынешнем периоде

Резюме

Целью исследования - является определение теоретико-методологических особенностей совершенствования системы управления в промышленной сфере в нынешнем периоде. Раскрыты и изучены проблемы обеспечения совершенствования действующих механизмов системы управления в промышленной сфере. Обоснована важность обновления основных подходов и элементов деятельности в сфере организации и развитии системы управления в промышленной сфере в соответствии с требованиями времени. Подготовлен ряд предложений по модернизации системы управления и предложен практичный инструментарий в промышленной сфере с учётом существующего ресурсного потенциала и в контексте технологических новшеств. Методология исследования – сформирована из группы научных методов - анализа, синтеза, статистики и обобщения. Кроме того, рассмотрен ряд научной аргументации разных учёных, изучающих проблемы совершенствования системы управления в промышленной сфере. Практическая значимость исследования – отражена в наличии возможности обновления действующих механизмов системы управления в промышленной сфере на основе рассмотренных теоретико-методологических подходов. Результаты исследования - выражается в подготовке целевых мероприятий и стратегий деятельности системы управления в промышленной сфере. Оригинальность и научная новизна исследования – в первую очередь, можно отметить, что основная научная новизна заключается с формировании современных, научно-теоретических, методологических и практических взглядов по проблемам совершенствования системы управления в

промышленной сфере. Подготовлен ряд рекомендаций и предложений по совершенствованию системы управления в промышленной сфере в условиях роста глобальных воздействий.

Ключевые слова: *промышленная сфера, система управления, совершенствование системы управления, теоретико-методологические особенности, теоретические подходы, проблемы развития промышленной сферы, вопросы совершенствования системы управления.*

Faig Khanoglan Karimli
doctoral student of the Department of "Economics" of Baku State University
E-mail: karimli.faig@gmail.com

Theoretical and methodological features of improving the management system of the industrial sector in the current period

Summary

The purpose of the research is to determine the theoretical and methodological features of improving the management system of the industrial sector in the current period. The problems of ensuring the improvement of the existing mechanisms of the management system in the industrial sector are studied. The importance of updating the main approaches and elements of activities in the field of organization and development of the management system in the industrial sector in accordance with the requirements of the time is justified. A number of proposals for the modernization of the management system and a practical approaches in the industrial sector, taking into account the existing resource potential and in the context of technological innovations are given. Research methodology - formed from a group of scientific methods - analysis, synthesis, statistics and generalization. In addition, a number of scientific arguments of various scientists studying the problems of improving the management system in the industrial sphere are considered. The practical significance of the research is reflected in the possibility of updating the existing mechanisms of the management system in the industrial sphere on the basis of the theoretical and methodological approaches considered. The results of the research are expressed in the preparation of targeted measures and strategies for the management system in the industrial sector. Originality and scientific novelty of research - first of all, it can be noted that the main scientific novelty lies in the formation of modern, scientific, theoretical, methodological and practical views on the problems of improving the management system in the industrial sphere. A number of recommendations and proposals to improve the management system in the industrial sector in the context of growing global impacts are given in the end.

Key words*: industrial sphere, management system, improvement of management system, theoretical and methodological features, theoretical approaches, problems of industrial sphere development, issues of management system improvement.*

Elmi redaktor: i.e.d.,dos. Y.Məmmədov
Daxil olub: 20.02.2023.
Çapa qəbul olunub: 27.02.2023.